Cəmil Həsənli

# İRAN NEFTİN KÖLGƏSİNDƏ:
## MÜSƏDDİQİN MİLLİ CƏBHƏSİ SOYUQ MÜHARİBƏ BURULĞANINDA (1949–1953)

qanun nəşriyyatı

Oxuculara təqdim olunan bu kitab London Universiteti Tarix Araşdırmaları İnstitutunun Baş elmi işçisi, professor Cəmil Həsənlinin yeni tədqiqat əsəridir. Burada 1949-cu ildə şaha sui-qəsd edilməsindən və “Milli Cəbhə” yaradılandan 1953-cü ilin avqustunda həyata keçirilən dövlət çevrilişinə qədər İranda baş verən dramatik hadisələrdən söhbət açılır.

Əsərin mərkəzi siması Məhəmməd Müsəddiqdir. O, ana tərəf-dən Qacar sülaləsinin varislərindən idi. Doktor Müsəddiq XX əsrin ən böyük millətçisi kimi tarixə düşüb. İranda neft sənayesi-nin milliləşdirilməsi onun adı ilə bağlıdır. 1952-ci ildə ingilisləri ölkədən çıxarmaqla Britaniyanın İranda 50 illik ağalığına məhz o, son qoydu.

Kitabda Müsəddiq hökumətinin daxili və xarici siyasəti, dün-yada birinci neft böhranı, İranda kommunist təhlükəsi, Soyuq müharibə, Yaxın Şərqin zəngin neft ehtiyatları uğrunda mübarizə Britaniya, Birləşmiş Ştatlar və Sovet üçbucağında təqdim edilir.

ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi və Britaniya Gizli Xidmətinin birgə əməliyyatı ilə 1953-cü ilin avqustunda Müsəddiq hökumə-ti devrildi. Sovet İttifaqı İrandakı dövlət çevrilişinə səssiz qaldı. Həmin dramatik hadisələrin bütün gizlinlərini bu kitabdan öy-rənə bilərsiniz.

Kitab ali məktəblərin tarix və digər humanitar ixtisaslar üzrə təhsil alan tələbələr, tarixi keçmişə maraq göstərən gənclər və ge-niş oxucu dairəsi üçün faydalı bir mənbədir.

**CƏMİL HƏSƏNLİ. İRAN NEFTİN KÖLGƏSİNDƏ: MÜSƏDDİQİN MİLLİ CƏBHƏSİ SOYUQ MÜHARİBƏ BURULĞANINDA (1949–1953).**

Bakı, Qanun Nəşriyyatı, 2026, 544 səh. (16 şəkillər blok ağ-qara)

Ölçü: 145x210 mm
Cild: qalın
Çapa imzalandı: 16.01.2025

| | |
|---|---|
| Redaktor: | Qurban Təbiətoğlu |
| Korrektor: | Aytən Səadəti |
| Mətn dizaynı: | Aytac Abdulova |
| Qapaq dizaynı: | Kənan Eynullayev |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-606-78-2

© Qanun Nəşriyyatı, 2026
© Cəmil Həsənli, 2026

# GİRİŞ

İranın Amerika və Qərblə qarşıdurması son 50 ildə beynəlxalq münasibətlərin əsas mövzusu olaraq qalmaqdadır. 1978–1979-cu illərin islam inqilabı şah rejimini devirməklə yanaşı, İranda Birləşmiş Ştatların üstün mövqelərinə zərbə vurdu. Bütövlükdə Qərb siyasəti və dəyərləri İranda uzunmüddətli böhrana daxil oldu. Ölkədə islam klerikal dini rejimi quruldu. Həmin müddətdə Sovet İttifaqının siyasi səhnədən getməsi regionda və dünyada böyük dəyişikliklər yaratsa da, Qərb-İran qarşıdurması bu gün də davam etməkdədir. Professor Mark Qasiorovski hələ 1987-ci ildə İranda 1953-cü il çevrilişi ilə bağlı dərc olunan məqaləsində yazırdı ki, əgər 1953-cü ildə Müsəddiq devrilməsəydi, İranda 1978–1979-cu illər inqilabı baş verməyə bilərdi.[1]

SSRİ-nin dağılmasının ən ciddi təsir göstərdiyi ölkələrdən biri İrandır. 1921-ci il Sovet-İran müqaviləsinə, 1927-ci il Sovet-İran sazişinə və 1954-cü il sərhədlərin dəqiqləşdirilməsi haqqında SSRİ-İran müqaviləsinə görə, Sovet İttifaqının İranla 2500 km-lik quru, 750 km-lik su sərhədləri vardı. Artıq 30 ildən çoxdur ki, bu sərhədləri Azərbaycan-İran, Ermənistan-İran, Türkmənistan-İran sərhədləri əvəzləyib. Bütövlükdə regionun geosiyasi mənzərəsi dəyişib. Sovet İttifaqının çöküşü İranın yeni müstəqil respublikalara nüfuz etməsi üçün geniş perspektivlər açdı.

1917-ci ilin bolşevik inqilabı Çar Rusiyasının İranla imzaladığı qeyri-bərabər sazişləri dayandırsa da, Rusiyanın İrandakı

---

[1] Mark J.Gasiorowski. The 1953 Coup D'etat in Iran., International Journal of Middle East Studies, Vol. 19, No. 3, 1987, p. 261.

mülklərindən imtina etsə də, 1921-ci il fevralın 26-da imzalanmış Sovet-İran dostluq müqaviləsi ilə yeni bir qeyri-bərabərliyin əsasını qoydu. Həmin müqavilənin 6-cı maddəsi qüvvədə qaldığı 70 il ərzində Damokl qılıncı kimi İranın başı üzərindən asıldı, kabusa çevrildi. 1941-ci ilin avqust ayında Sovet qoşunları məhz həmin maddə əsasında İrana daxil olub onun şimal hissəsini işğal etdi. 1907-ci il 31 avqust tarixli ingilis-rus müqaviləsindən sonra İran ikinci dəfə Böyük Britaniya ilə Sovet İttifaqı arasında nüfuz dairəsinə bölündü.

Müharibə dövründə – 1942-ci il yanvar ayının 29-da İranın ərazi bütövlüyü haqqında üçtərəfli saziş imzalansa da, İkinci Dünya müharibəsi başa çatdıqdan sonra İranın ərazi bütövlüyü və suverenliyi ciddi təhlükə altına düşdü.[2] 1945–1946-cı illərin Azərbaycan böhranı İranı Soyuq müharibənin ilk sınaq meydanına çevirdi. Məhəmməd Rza şah Pəhləvi hələ ötən əsrin 60-cı illərində etiraf edirdi ki, "Soyuq müharibə, həqiqətən, 1946-cı ilin Azərbaycan böhranı ilə İrandan başladı".[3] İkinci Dünya müharibəsi dövründə müttəfiqlərarası əməkdaşlıq məhz İranda Qərb-Şərq qarşıdurması ilə əvəzləndi. Müharibədən sonra Sovetlərin İranda həm ərazi, həm də neft maraqları vardı və Moskva bunun hər ikisini həll etmək niyyətində idi. Lakin başda ABŞ olmaqla, Qərbin müqaviməti ilə qarşılaşdıqda, Kreml ərazi maraqlarını neft maraqlarına qurban verdi. Əslində, Sovetlər İkinci Dünya müharibəsində qazandığı böyük qələbədən sonra Soyuq müharibənin məhəlli qarşıdurmasında İrandan məğlub kimi çıxmaq istəmirdi. Prosesin neft üzərinə transfer edilməsi də bununla bağlı idi. Amma 1946-cı ilin aprelində imzalanmış Sovet-İran birgə neft cəmiyyəti yaratmaq haqqında saziş də perspektivsiz oldu.

---

[2] Договор о союзе между Союзом Советских Социалистических Республик, Великобританией и Ираном 29 января 1942 года., "Известия", 1942, 30 января.

[3] Mohammad Reza Pahlavi (Shah of Iran). Mission for My Country. McGraw-Hill, 1961, p. 307.

Stalin nəinki neft almadı, əksinə, Sovet İttifaqı uzun müddətə İranı itirdi.[4]

İran 1946-cı ilin Azərbaycan böhranından Qərbin yardımı ilə çıxdı. Tehran öz ərazi bütövlüyünü qoruyub saxladığı üçün ingilis-amerikan tandeminə borclu idi. Lakin bu yardım İrana baha başa gəldi. 1941–1946-cı illərin Sovet dominantlığını ingilis-amerikan dominantlığı əvəzlədi. Ölkənin hərbi-siyasi və sosial-iqtisadi həyatı Qərbin nəzarətinə düşdü. 1947-ci ilin oktyabrında ABŞ ilə imzalanmış hərbi müqavilə Amerikanın İrandakı mövqelərini xeyli gücləndirdi. 1949-cu ilin noyabrında Məhəmməd Rza şahın Amerikaya səfəri isə İran-ABŞ münasibətlərini daha da möhkəmləndirdi. İran ordusu Amerika hərbi müşavirləri tərəfindən qurulmağa başlandı. İran Birləşmiş Ştatların mühüm maraqları sferasına daxil oldu.

ABŞ-dən fərqli olaraq Britaniyanın İranda böyük təcrübəsi vardı. Ölkənin gəlirlərinin əsas mənbəyi olan neft sənayesi 50 ilə yaxın ingilislərin nəzarətində idi. İngilis-İran Neft Şirkətinin İran neftindən Britaniya büdcəsinə ödədiyi vergi İran büdcəsinə ödədiyi vergidən 3 dəfə artıq idi. 1933-cü ildə İranla İngilis-İran Neft Şirkəti arasında imzalanmış müqavilə ölkənin əsas gəlir mənbəyi

---

[4] Bruce R.Kuniholm. The Origins of the Cold War in the Near East: Great Power Conflict and Diplomacy in Iran, Turkey, and Greece. Princeton. 1980; Fawcett Louise L'Estrange. Iran and the Cold War: the Azerbaijan crisis of 1946. Cambridge Univercity Press, 1992; Natalia Yegorova. The "Iran Crisis" of 1945–1946: A View from the Russian Archives: Cold War International History Project, Working Paper, Washington, DC: Woodrow Wilson Center Press, 1996, No. 15; Fernande Raine Scheid. Stalin, Bagirov and Soviet Politics in Iran, 1939–1946. Ph.D. dissertation, Yale University, 2000; Jamil Hasanli. At the Dawn of the Cold War: The Soviet–American Crisis over Iranian Azerbaijan, 1941–1946. Rowman and Littlefield Publishers, INC. 2006; Benjamin F.Harper. The Iranian Crisis and the Birth of the Cold War: The Bridge to Victory. Lexington Books, 2018; Jamil Hasanli. Stalin's Early Cold War Foreign Policy: Southern Neighbours in the Shadow of Moscow, 1945–1947. Taylor & Francis Group, London & New York, 2022; Cəmil Həsənli. Güney Azərbaycan: tarixin yolayrıcında (1939–1945). Bakı, Qanun nəşriyyatı, 2023; Yenə onun. Təbriz – 1946-cı il: Milli Hökumətin Zəfər və Faciəsi. Bakı, Qanun nəşriyyatı, 2024.

olan neft sənayesini Britaniyanın nəzarətinə vermişdi. Birləşmiş Krallığın ölkənin siyasi həyatına müdaxiləsi qeyri-məhdud idi. İran hökumətləri ingilislərin rəyi ilə qurulur, onların etirazı ilə vəzifədən gedirdi. İranın siyasi həyatına ingilislərin tam nəzarəti vardı. İngilis intriqaları İranın daxili həyatının ayrılmaz hissəsinə çevrilmişdi. Məhəmməd Rza şah bütün məsləhətləri ingilis səfirindən alırdı. Ölkənin siyasi dairələrinin, hökumət və Məclisin rüşvətlə ələ alınması adi hala çevrilmişdi. Bütün bunların nəticəsi olaraq İran xalqı səfalət içində yaşayırdı.

XX əsrdə 40-cı illərin sonu – 50-ci illərin əvvəlləri Qərb-Şərq qarşıdurması özünün pik həddinə çatmışdı, Soyuq müharibə tüğyan edirdi. 1949-cu ildə Sovet İttifaqında atom bombasının uğurla sınaqdan keçirilməsi Soyuq müharibədə onun çəkisini xeyli artırmış, kommunizm dünya üçün təhlükəyə dönmüşdü. 1949-cu ildə Çinin kommunistləşməsi isə bu təhlükəni real qoxuya çevirdi. 1950-ci ildə Koreya müharibəsinin başlanması dünyanı iki cəbhəyə bölmüşdü. Kommunizmə, Sovet geosiyasi ekspansiyasına qarşı Qərbdə yeni xarici siyasət doktrinası həyata keçirilirdi. Kommunizmə qarşı total təqib kampaniyası başlamışdı. Birləşmiş Ştatlarda dövlət qulluqçularının loyallığının yoxlanılması və makkartizm bunun açıq ifadəsi idi. 1949–1950-ci illərdə dünya böyük müharibə təhlükəsi ilə üz-üzə dayanmışdı.

Bu proses İrandan da yan keçmədi. 1947-ci ildə Trumen doktrinası üzrə Yunanıstan və Türkiyəyə göstərilən Amerika yardımları az sonra İrana da şamil edildi. Məqsəd İranın kommunist təhlükəsinə qarşı müqavimətini gücləndirmək idi. Bu təhlükə İrana iki istiqamətdən gəlirdi. Bunun birincisi birbaşa Sovet İttifaqından, ikincisi isə ölkə daxilində Sovet alətinə çevrilmiş Tudə Partiyasından gələn təhlükə idi. 1941-ci ilin dekabrında yaradılmış İran Xalq Partiyası (Tudə) Sovet qoşunları İranda olduğu dövrdə öz fəallığı ilə seçilirdi.[5] 1946-cı ilin dekabrında

[5] Tudə Partiyasının fəaliyyəti ilə bağlı maraqlı araşdırmanın müəllifi doktor Miyata Osamu partiyanın 1941-ci ilin sentyabrında yaradıldığını yazır. Bax: Miyata Osamu.